<"xml encoding="UTF-8?>

# ƏL-HICR SURƏSI

.Bağışlayan və mehriban Allahın adı ilə .0

Əlif, Lam, Ra. (Mən, hər şeyi görən Allaham. Bu kitab həmin bu hərflərdən təşkil olunmuşdur, .1 amma heç kimin onun kimisini gətirmək qüdrəti yoxdur. Bu kitabın «möhkəm» və bu cür «mütəşabih» ayələri vardır. Bu hərflər Allahla Onun Peyğəmbəri arasında olan rəmzlərdir.) Bu (uca məqamlı) surə, bu kitabın və (özü) aydın (olan) və aydınlıq gətirən Qur’anın ayələridir və bu (uca məqamlı ayələr), Lövhi-Məhfuzda sabit olan ayələr və həmin Lövhdə olan aydın Qur’anın .ayələridir

Bir çox kafirlər (müsəlmanların qələbəsini görəndə və ya ölən zaman və yaxud cəza günü) .2 .kaş müsəlman olmalarını arzulayarlar

Qoy yesinlər, (dünyanın ləzzətlərindən) bəhrələnsinlər və arzular onların başlarını qatsın. .3 .Tezliklə başa düşəcəklər

Biz heç bir insan cəmiyyətini (Lövhi-Məhfuzda) onun üçün (ömür müddəti barəsində) məlum .4 .yazı olmadan həlak etmədik

Heç bir ümmət və dəstə, özünün müəyyən (edilmiş ömür) müddətindən nə irəli keçə bilər və .5 .nə geri qala bilər

Və (istehza məqsədi ilə Peyğəmbərə) dedilər: «Ey bu zikr (Qur’an) nazil olan şəxs, həqiqətən .6 «!sən dəlisən

Əgər sən doğruçusansa, nə üçün (iddianın doğruluğunu sübut etmələri və sənə müxalif» .7 «?olanları əzmələri üçün) mələkləri bizim yanımıza gətirmirsən

Biz mələkləri yalnız haqq olaraq (möcüzəvi şəkildə haqqı isbat etmək üçün) nazil edirik və .8 .onda (əgər qəbul etməsələr, cari qanunumuza əsasən) onlara möhlət verilmir

Həqiqətən bu zikri (Qur’anı) Biz nazil etdik və şübhəsiz, onu (təhrifdən, nəsx olunmaqdan və .9

.müddətinin sona çatmasından) Biz Özümüz qoruyarıq

.Doğrudan da Biz səndən öncə keçmiş tayfalara (peyğəmbərlər) göndərdik .10

.Və onlara elə bir peyğəmbər gəlmədi ki, ona istehza etməsinlər .11

Biz beləcə bu Qur'anı (höccəti tamam etmək üçün, ona istehza olunmasını isə .12 .bədbəxtliklərinə uyğun olaraq) günahkarların qəlblərinə yeridərik

Halbuki ona iman gətirməzlər. Əlbəttə, keçmişdəkilərin yolu da keçmişdir (onlar da belə .13 .(idilər

Əgər göydən onların üzünə bir qapı açsaydıq və onlar daim oradan yuxarı çıxsaydılar (və .14 ,(bütün aləmləri görsəydilər

yenə də «həqiqətən bizim gözümüz bağlanmışdır, əslində biz cadu olunmuş (sehirlənmiş) .15 .bir dəstəyik» deyərdilər

Həqiqətən Biz göydə (günəşin il uzunu ətrafına fırlandığı) bürclər yaratdıq və onu baxanlar .16 .üçün (ulduzlarla) zinətləndirdik

Və onu hər bir qovulmuş şeytandan qoruduq (şeytanların oraya qalxaraq mələklər aləminin .17 .(sirlərindən xəbərdar olmaq qüdrətləri yoxdur

.Gizlicə qulaq asan istisna olmaqla ki, onu aydın bir şölə təqib edər .18

Və bu yeri sərdik, onda möhkəm dağlar yerləşdirdik və orada hər bir şeydən müəyyən .19 ölçüdə (hər biri zahiri görünüş, xüsusiyyət, zaman və məkan baxımından müəyyən biçimdə olan .bitkilər) bitirdik

Və orada sizin üçün və ruzisini sizin vermədikləriniz (heyvanlar və cinlər) üçün hər cür .20 .yaşayış vasitələri qoyduq

Varlıq aləmində və sizin təsəvvür aləminizdə) elə bir şey yoxdur ki, onun xəzinələri (onun) .21 vücudunun Bizim mütləq iradəmiz və «ol» kəlməsi olan mənbələri) Bizim yanımızda olmasın və Biz onu (vücud mərhələsinə) yalnız müəyyən miqdarda nazil edirik. [Və həmçinin sizin yaşayış vasitələrinizdən elə bir şey yoxdur ki, (onun bu dünyanın varlıqlarından olan ilkin maddəsi) Bizim [.(ixtiyarımızda olmasın və onu yalnız müəyyən miqdarda nazil edirik (gerçəkləşdiririk

Və küləkləri (buludlar, ağaclar və otlar üçün) mayalandırıcı olaraq göndərdik. Göydən (yağış, .22
qar və dolu şəklində) su nazil etdik və sizi onunla sirab etdik. Siz onu (nə göyün buludunda və
.nə də yerin dərinliklərində) yığıb saxlayan deyilsiniz və buna qüdrətiniz də yoxdur

!Şübhəsiz dirildən və öldürən Bizik və Bizik (fani olduqdan sonra onların hamısının) varisi .23

Həqiqətən Biz sizin həm (yaradılışın əvvəlindən indiyə qədər olmuş) keçmişlərinizi(n sayını), .24
həm də gələcəklərinizi(n sayını) bilirik [və sizin (iman və təqvada) irəlidə olanlarınıza da elmimiz
![var, sizin (iman və təqvada) geridə qalanlarınıza da

Əlbəttə, sənin Rəbbin (Qiyamət günü) onları (həyat vermək üçün onların bədən üzvlərini və .25
.hesab üçün fərdləri) toplayacaqdır. Həqiqətən O, hikmət sahibi və biləndir

Şübhəsiz, Biz (ilk) insanı qoxumuş palçıqdan götürülmüş quru, çiy və səs çıxaran (insan .26
.surətinə düşmüş) gildən yaratdıq

Və Cannı (şeytanların atası olan birinci İblisi) ondan qabaq tüstüsüz, çox isti və sirayət edən .27
.oddan yaratdıq

Və (yada sal) o zaman(ı) ki, Rəbbin mələklərə dedi: «Şübhəsiz, Mən qoxumuş palçıqdan .28
.«alınmış quru gildən bəşər yaradacağam

Elə ki, onu düzəltdim və ona Öz ruhumdan (mübarək və Özümə layiq ruhdan) üfürdüm,» .29
«!hamılıqla ona (təzim üçün) səcdə halında üzü üstə düşün

.Beləliklə, mələklərin hamısı (onun qarşısında) səcdə etdilər .30

.İblisdən başqa, ki, o, səcdə edənlərlə birgə olmaqdan boyun qaçırtdı .31

«?Allah buyurdu: «Ey İblis, sənə nə olub ki, səcdə edənlərlə birgə deyilsən .32

Dedi: «Mən əsla Sənin qoxumuş palçıqdan alınmış quru gildən yaratdığın bəşərə səcdə .33
«!edən deyiləm

Allah buyurdu: «Belə isə, buradan (Cənnətdəki uca məqamdan, Allah dərgahından və ali .34
.«mələklərin sırasından) çıx ki, həqiqətən sən (hər bir rəhmət və kəramətdən) qovulmuşsan

Və şübhəsiz, (ilahi vəzifələrin yerinə yetirilməsi müddəti olan indidən) cəza gününədək» .35
«.(sənə lənət olacaqdır (və ondan sonra da əbədi cəza zamanıdır

Dedi: «Ey Rəbbim, elə isə mənə onların (Adəm övladlarının) dirildiləcəkləri günə kimi möhlət .36
.«ver

.«Allah buyurdu: «Sən möhlət verilənlərdənsən .37

Lakin Qiyamətədək deyil,) məlum vaxtın gününədək (bəşər cəmiyyətinin hamısının)» .38
.«(düzələcəyi və ya bəşər nəslinin İsrafilin surunun birinci dəfə üfürülməsi ilə kəsiləcəyi günədək

Dedi: «Ey Rəbbim, məni (Öz dərgahından uzaqlaşdırmaqla) azğınlığa atdığına görə, mən də .39
yer üzündə (bütün pis işləri) onlar (insanlar) üçün zinətləndirəcək və onların hamısını
.«azdıracağam

.«Sənin (rəhmətini şamil etməklə) onların arasından seçdiyin bəndələrin istisna olmaqla» .40

İblis onların az bir qismindən başqa hamısını ixtiyari hidayətdən çıxarıb məcburi şəkildə) .41
azdıracağını iddia etdi.) Allah buyurdu: «Bu, (onları ixtiyari hidayət və zəlalət yolunda qoymaq),
.«(Mənim öhdəmdə olan düz yoldur (və hər bir qüdrətdən xaricdir

Və şübhəsiz, sənin Mənim bəndələrim üzərində heç bir hökmün yoxdur, (onlar yol» .42
!«seçməkdə həmişə ixtiyara malikdirlər), tamamilə sənə tabe olan azğınlardan başqa

.«Və onların hamısının vədə yeri, mütləq Cəhənnəmdir» .43

Onun yeddi qapısı vardır, hər qapı(dan daxil olmaq) üçün onların bir hissəsi bölünmüşdür. .44
[Yaxud: Onun yeddi təbəqəsi vardır ki, hər bir təbəqə üçün cəzalarının müxtəlifliyinə görə onların
.bir dəstəsi bölünmüşdür

.Və həqiqətən təqvalılar (o dünyada) bağlarda və bulaqlar(ın başın)da olacaqlar .45

Daxil olan zaman onlara) «(Allah və mələklər tərəfindən olan) salamla oraya daxil olun ki,) .46
(hər hansı bir zərər-ziyandan, xüsusilə fani olmaqdan və müddətin sona çatmasından) amanda
.«olacaqsınız

Və onların qəlblərində olan kin-küdurəti (batil düşüncələr və xarab xislətləri) elə çıxarıb .47
.atdıq ki, taxtlar üzərində qardaşcasına bir-birlərinin qarşısında əyləşərlər

.Orada onlara əsla bir zəhmət yetişməz və onlar oradan əsla çıxarılmazlar .48

Ya Peyğəmbər!) Mənim bəndələrimə xəbər ver ki, şübhəsiz, çox bağışlayan və mehriban) .49

!Mənəm

.Və həmin ağrılı əzab (da) Mənim əzabımdır .50

.Və onlara İbrahimin qonaqlarından xəbər ver .51

Onlar onun hüzuruna daxil olub «salam!» deyən zaman o (İbrahim) dedi: «Həqiqətən biz, .52 «.(vaxtsız və icazəsiz gəldiyinizə görə) sizdən qorxuruq

Dedilər: «Qorxma, biz səni (İshaq adlı) bilikli bir oğulla müjdələyirik (ki, o, vəhy vasitəsilə din .53 .«(elmləri və səmavi kitablardan xəbərdar olacaqdır

Dedi: «Qocalığın mənə yetişdiyi bir halda mənə müjdə verirsiniz?! Belə olan halda, mənə nə .54 «?müjdə verirsiniz

Dedilər: «Sənə düzgün (haqq və sabit) bir (işə görə) müjdə verdik. Buna görə də əsla .55 .«naümidlərdən olma

«!?Dedi: «Öz Rəbbinin rəhmətindən azğınlardan başqa kim naümid olar .56

«?Dedi: «Ey elçilər, bəs sizin (əsl) işiniz nədir .57

.«(Dedilər: «Biz günahkar bir qövmə (Lut qövmünə) göndərilmişik (ki, onları həlak edək .58

«.Lutun ailəsi istisna olmaqla. Biz onların hamısına mütləq nicat verəcəyik» .59

Onun (nicat tapacaq ailə üzvlərindən də) zövcəsi müstəsnadır ki, onun (imansızlığına görə)» .60 .«mütləq (Lut qövmünün əzabda) qalanlar(ın)dan olmasını qərara almışıq

,Beləliklə, elə ki, elçilər Lut ailəsinin yanına gəldilər .61

.«Lut dedi: «Həqiqətən, siz tanış olmayan və yad bir dəstəsiniz .62

Dedilər: «(Arada pis bir məqsəd yoxdur,) biz (sənin qövmün üçün) barəsində şəkk və .63 .tərəddüddə olduqları şeyi (əzabın nazil olmasını) gətirmişik

.«Və Biz sənin üçün haqq xəbəri və doğru vədi gətirmişik və şübhəsiz, biz düz danışanlarıq» .64

Odur ki, gecənin bir yarısında öz ailəni yola sal, özün də onların arxasınca get, sizdən heç» .65 kim yerdə qalmasın (ya heç kim dönüb geriyə baxmasın) və əmr olunduğunuz səmtə tərəf yola

.«düşün

Və Biz mütləq baş verəcək bu işi ona vəhy etdik ki, bunların kökü səhəri açarkən .66
.kəsiləcəkdir

.Və (o halda) şəhər əhli sevincək gəldi .67

.«Lut dedi: «Bunlar mənim qonaqlarımdır, məni (bu biabırçı işinizlə) rüsvay etməyin .68

.«Və Allah(ın əzabın)dan qorxun və məni xar və başıaşağı etməyin» .69

Dedilər: «Məgər sənə dünya adamlarını (onları dəvət etməyi, sığınacaq verməyi və onları .70
«!?qonaq etməyi) qadağan etməmişik

Dedi: «Əgər bir iş görmək istəyirsinizsə, bunlar mənim qızlarımdır.» (Öz qızlarına, yaxud .71
.(onların özlərinin peyğəmbərin qızları yerində olan arvadlarına işarə etdi

Sənin canına and olsun ki, onlar öz (küfr, günah və şəhvət) məstliklərində çaşqın və .72
.sərgərdan idilər

.Və (nəhayət) günəş çıxan zaman onları (göydən gələn) bağırtı yaxaladı .73

.Beləliklə, onların şəhərlərini alt-üst etdik və onlara gil daşlardan yağış yağdırdıq .74

Şübhəsiz, bunda (bu hadisədə) ağıl və şüur sahibləri üçün (Allahın qüdrət və qəzəbi, .75
.bəndənin azğınlığının sonu barəsində) nişanələr vardır

Və əlbəttə, o (viran edilmiş həmin şəhərlər) yol üzərində hələ də qalmaqdadır (və ibrət .76
.(götürmək üçün bir amildir

Və həqiqətən bunda (bu hadisədə) iman əhli üçün (Haqqın qüdrəti və batilin cəzası .77
.barəsində) bir nişanə vardır

Və həqiqətən «Əykə»nin (Şüeybin qövmünün məskunlaşdığı çox sıx ağaclı diyarın) əhalisi .78
.zalım idi

Beləliklə, Biz onlardan intiqam aldıq. (Hud surəsinin 94-cü ayəsinə müraciət edin.) Və .79
.əlbəttə, o ikisi (Lut və Şüeybin qövmlərinin məskənləri) açıq-aşkar yol üstündədir

Və həqiqətən Hicr əhalisi (Salehin ümməti olan Səmud qövmü) Allahın peyğəmbərlərini .80

.təkzib etdilər

Və Biz onlara (dəvənin daş və sairədən xaric olması kimi) Öz nişanələrimizi verdik, amma .81
.onlar ondan üz döndərdilər

Və onlar (dağın aşmasından və düşmənin yol tapmasından) xatircəm halda dağlardan evlər .82
.yonurdular

.Beləliklə, səhəri açarkən onları (göydən gələn bir) bağırtı bürüdü .83

Beləliklə (məskən, övlad və var-dövlət kimi) kəsb etdikləri şey onlardan (Allahın əzabından .84
.heç nəyi) dəf etmədi

Və Biz göyləri, yeri və onların arasında olanları yalnız haqq olaraq (və uca və ağılın təsdiq .85
etdiyi bir məqsəd üçün) yaratmışıq və şübhəsiz, Qiyamət gələsidir (və kafirlərə cəza verəcəyik).
.Buna görə də, gözəl tərzdə (nə qədər ki, döyüş əmri almamısan) güzəşt et

.Həqiqətən sənin Rəbbin həmin (bütün şeyləri) yaradan və (hər şeyi) biləndir .86

Doğrudan da sənə hər namazda ən azı iki dəfə təkrar edilən və ayələri bir-birini təfsir edən .87
.bu kitabın bir hissəsi olan (Həmd surəsi adında) yeddi əzəmətli ayə və böyük Qur’anı əta etdik

Gözlərini onların bəzilərini bəhrələndirdiyimiz şeylərə dikmə və onlara (iman gətirməyənlərə) .88
.görə qəmgin olma və öz təvazökarlıq qanadını möminlər(in üstün)ə sər

Və de: «Həqiqətən mən (sizi ilahi əzabın nazil olmasından çəkindirən) həmin aşkar .89
«.qorxudanam

!Bölənlərə (əzab) nazil etdiyimiz kimi .90

Həmin o kəslərə ki, (peyğəmbərin göndərilməsinin əvvəlində) Qur’anı neçə hissəyə böldülər .91
(bir hissəsini sehr, bir hissəsini şer, bir hissəsini keçmişlərin əhvalatları və bir hissəsini cinlərin
kəlamı adlandırdılar. Həmçinin onun bir hissəsini qəbul və bir hissəsini rədd etdilər. Onları
.(müxtəlif əzablarla həlak etdik

Buna görə də, sənin Rəbbinə and olsun ki, şübhəsiz (Qiyamət günü) onların hamısını sorğu- .92
.suala tutacağıq

.Dünyada) etdikləri əməllər barəsində) .93

.Buna görə də, sənə əmr olunanı aşkar şəkildə bəyan et və müşriklərdən üz çevir .94

.Həqiqətən Biz istehza edənlərin şərini səndən uzaqlaşdırdıq .95

!Həmin o kəslər(in) ki, Allaha digər bir məbudu şərik qoşurlar. Tezliklə biləcəklər .96

.Şübhəsiz, Biz sənin qəlbinin onların dediklərindən sıxılmasını bilirik .97

Buna görə də, Rəbbinə həmd və şükr etməklə yanaşı (Onu) pak sifətlərlə mədh et və səcdə .98
!edənlərdən ol

!Və o yəqin iş (hər bir canlı üçün labüd olan ölüm) sənə yetişənə qədər Rəbbinə ibadət et .99